

Nicat Həşimzadə

# Dahiləri "öldürən" obrazlar

*(Esse)*

Tolstoy Anna Kareninanı öldürməsəydi, Anna Tolstoyu "öldürərdi". Dünya ədəbiyyatında ölmüş obrazlar daha çox yadda qalıb. Nümunələr çoxdur. Məsələn, İrvinq Stounun "Yaşamaq yanğısı" əsərində Van Qoq qardaşları ölür. Visente van Qoq intihar edir. Teo isə bu dərdə dözməyib ölür. Məlumat üçün deyim ki, povest ölümündən sonra dünya şöhrəti qazanmış dahi holland rəssamı Visente van Qoqun həyat və yaradıcılığından bəhs edir.

Qustav Floberin "Madam Bovari" romanının sonunda da xanım Bovari ölür. Bovari ölməliydi ki, əri Şarl Rodolfun simasına baxanda arvadını xatırlasın. Onun baxışlarında nifrət varmı? Bu suala cavab tapmaq çətin məsələdir. O, alicənablığını qorumuşdu.

Somerset Moemin "Ay və qara qəpik" əsərində də belə nəcib obraz var. Stryov ona xəyanət edən qadınına son anadək alicənab münasibət göstərir. Xanım Blanşsa ölür.

Balzakın "Qorio ata" əsərində Qorio ölməliydi. Bu cür möhtəşəm obrazlar ölməyə bilməz. Onlar öz zəngin mənəvi dünyaları ilə bu rəzil maddi dünyada yaşaya bilməzlər, bu cür insanlara qocalıqdan ölmək yaraşmaz. Qorio ata qoca olsa da sadaladığım digər obrazlar gənclik və orta yaş həddinə çatanda ölürlər.

Düşünürəm, axı niyə bu obrazlar ölür, niyə bu ölümlər bir oxucu kimi məni sarsıdır, həm də düşündürür. Niyə mən Madam Bovari, Şarla xəyanət edəndə özümü Şarlın yerinə qoyuram.. Əksər hallarda xoşbəxt obrazlar axmaq olurlar. İnsan təbiətində kədərə ehtiyac var. Kədərsiz insan dünyanı dərk edə bilməz. Düzdür, Tolstoyun Anna Kareninadan daha dəyərli obrazları var. Anna Kareninaın alicənab, nüfuzlu əri var. Floberin Madam Bovarisi ilə Tolstoyun Anna Kareninası, həmçinin Somerset Moemin Madam Blanş obrazları arasında kəskin bir oxşarlıq var. Hər üç qadın xəyanət edir. Hər üç qadının mədəni, nəcib əri var. Bəs niyə xəyanət edirlər? Kişi həddən artıq nəcib olanda qadın bezir, yorulur, sərt xarakterli kişi arzulayır.

Başqa bir ölmüş obraz Nellini xatırlayıram. Dostoyevskinin "Alçaldılmış və təhqir edilmişlər" romanının qəhrəmanıdır. 13 yaşlı qız xoşbəxtliyə yaxınlaşanda, insanlar tərəfindən mərhəmət görəndə həyatla vidalaşır. Mənə elə gəlir ki, dünya ədəbiyyatının ən kədərli uşaq obrazlarını Dostoyevski yaradıb. Netoçka Nezvanova obrazını çox sevirəm. Bu əsəri oxuyanda düşünmüşdüm, axı necə olur ki, qız atalığını doğma anasından daha çox sevir.

Bu obrazlar ölməsəydi yazıçılar "özləri öləcəkdi", çünki belə ağır, kədərli obrazlar yaradandan sonra ya obrazı öldürməli, ya da özün ölməlisən.

es